# Milli mətbuatımızın canlı əfsanəsi

**Azərbaycan maarifçilik və dövlətçilik məfkurəsinin geniş yayılması, ölkəmizin bəşəri tərəqqiyyə qovuşması kimi tarixi bir missiyanı fəaliyyət göstərdiyi bir əsrdən uzun müddətdə şərəflə davam etdirən "Xalq qəzeti"nin 105 yaşının tamam olmasını ölkənin elmi-pedaqoji ictimaiyyəti də ümummədəni hadisə kimi böyük sayğı ilə qarşılayır.**



Xalqımızın ictimai fikir xəzinəsini zənginləşdirən, milli mətbuatımızın və jurnalistikamızın inkişafında əvəzsiz töhfələri olan bu öncül ictimai-siyasi nəşr ötən müddətdə özünü ümumxalq söz tribunası kimi təsdiq etmişdir. Redaksiyanın peşəkar və milli ideallara bağlı mövqeyi, qəzetin respublikanın mədəni-sosial həyatında baş verən yenilikləri xalqa yüksək ictimai məzmunda çatdırması, bir-birindən maraqlı rubrikaları, sərrast və aydın üslubu onu günümüzdə də ölkənin bayraqdar mətbu nəşr kimi tanıdır.

Ötən 105 ildə daim xalqın yanında olan "Xalq qəzeti" müstəqillik illərində daha da inkişaf edərək fəaliyyətini XXI əsrin dəyişən tələblərinə uyğun şəkildə qurmuşdur. Bu gün də milli mətbuatımızın önündə gedən "Xalq qəzeti" öz fəaliyyətində ən son müasir texnologiyaları tətbiq etməklə cəmiyyətə obyektiv və operativ məlumatlandırma xidməti göstərir.

Redaksiyanın apardığı vətənpərlik və maarifləndirmə işi, davamlı analitik təhlillər və aktual mövzulu publisistik yazılar ictimai rəyin formalaşmasında önəmli rol oynayır. "Xalq qəzeti" baş verən hadisələrə, zamanın çağırışlarına həssaslığı ilə internet əsrində də avanqard mövqeyini qoruyub saxlayır.

Milli mətbuatımızın canlı əfsanəsi olan "Xalq qəzeti"nin yaradıcı kollektivini 105 illik yubiley münasibəti ilə elmi-pedaqoji ictimaiyyət adından səmimi təbrik edirik. İnanırıq ki, zəngin ənənələr üzərində tarixinin ikinci əsrini yaşayan qəzet bundan sonra da xalqa sözlə xidmətini davam etdirəcək, müstəqil Azərbaycanın qalibiyyətli tarixi yürüşünü əks etdirən parlaq güzgü olacaq.

***Cəfər CƏFƏROV,***
***ADPU-nun rektoru, professor***